ADAU-nun ELMİ ƏSƏRLƏRİ

ISSN 2310-4104 E-ISSN 2790-5799

https://doi.org/10.30546/2790-5799.4.2024.050

# AZƏRBAYCANDA VƏ DÜNYADA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN TƏSNİFAT MEYARLARI

Elvin Nağıyev

## XÜLASƏ

Kiçik və orta sahibkarlıq iqtisadi artımın, innovasiyanın və məşğulluğun əsas hərəkətverici qüvvələrindən biri hesab olunur. Bununla belə, maliyyə resurslarına məhdud çıxış, ixtisaslı kadr çatışmazlığı, institusional problemlər və regionlar üzrə qeyri-proporsional bölgü kimi maneələr onların inkişafına əngəl yaradır. Müxtəlif ölkələrdə kiçik və orta sahibkarlığın təsnifatı iqtisadi struktur və yerli qanunvericiliyə uyğun müəyyən edilir, bu da onların inkişafına və dövlət dəstəyi mexanizmlərinə birbaşa təsir göstərir. Kiçik və orta sahibkarlığın səmərəli inkişafı üçün beynəlxalq təcrübəyə uyğun olaraq innovasiya potensialının gücləndirilməsi, rəqəmsallaşmanın genişləndirilməsi və regional tarazlığın təmin edilməsi vacibdir. Strateji planlaşdırma və adekvat dövlət dəstəyi sayəsində kiçik və orta sahibkarlıq subyektləri milli iqtisadiyyatda daha böyük rol oynaya bilər. Onların effektiv inkişafı üçün düzgün təsnifləşdirilməsi, tanımlanmasının əhəmiyyəti böyükdür. Məqalədə bu sahədə qabaqcıl dünya ölkələrinin təcrübəsi araşdırılmış, bəzi statistik məlumatlar təqdim olunmuşdur. Eyni zamanda Azərbaycanda və dünya praktikasında kiçik və orta sahibkarlığın ümumi daxili məhsulda payı müqayisə olunmuş, ölkəmizdə bu seqmentin inkişafına mane olan faktorlar qeyd olunmuşdur.

**Açar sözlər:** Kiçik və Orta Sahibkarlıq, iqtisadi artım, təsnifat meyarları, innovasiya, regional inkişaf

**GİRİŞ.** Kiçik və Orta Sahibkarlıq (KOS) iqtisadiyyatın hərəkətverici qüvvəsi olmaqla yanaşı, innovativ həllərin inkişafında və ÜDM-in artmasında mühüm rol oynayır. Onların ölçü və xüsusiyyətləri sürətlə dəyişən dünyada yeni dəyər yaratmağa, istehlakçıların gözləntilərinə və tələblərinə çevik uyğunlaşmağa imkan verir. Qərarların qısa zamanda qəbulu, yeniliklərin çevik tətbiqi, inzibati xərclərin minumumlaşdırılması imkanının olması KOS-ların rəqabətqabiliyyətliyini artıran faktorlar hesab edilir. Amma bu müəssisələrin geniş maliyyə imkanlarının olmaması, bəzən maliyyə resurslarına çıxışın məhdudluğu, ixtisaslı kadrlar üçün cəlbediciliyinin aşağı olması, ucuz proqram təminatı səbəbilə sistem və təhlükəsizlik təminatının aşağı olma riskləri kimi ciddi təhdidləri mövcuddur.Onların ehtiyaclarının və problemlərinin həll edilməsi üçün isə ilk növbədə KOS-ların doğru tanımlanması, təsnifləşdirilməsi, seqmentləşdirilməsi vacibdir ki, effektivliklərinin artırmaq üçün adekvat və ölçüləbilən tədbir və layihələr hazırlamaq mümkün olsun. Ölkələrin inkişaf səviyyəsindən, iqtisadiyyatının xarakterindən, apardığı iqisadi-sosial siyasətdən və ən başlıcası KOS subyektərinin tanımlanmasından, ölçü meyyarlarından asılı olaraq onların iqtisadiyyatda və milli gəlirdə çəkisi bir-birindən fərqlənir. Dünya praktikasında KOS-ların vahid təsnifləşdirmə meyyarlarının olmaması onların həcminin və iqtisadiyyata real təsirlərinin ölçülməsini çətinləşdirir, obyektiv müqayisənin aparılmasını mane olur. Son 20 il ərzində Azərbaycanda KOS subyektlərinin təsnifatında 4 dəfə dəyişiklik edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 aprel 2004-cü il tarixli 57 saylı qərarında təsnifləşdirmə meyyarı kimi müəsisənin fəaliyyət sahəsi və illik dövriyyəsi əsas götürülsə də, daha sonra edilmiş dəyişikliklərdə ölçü meyarı olaraq orada çalışan işçilərin sayı və illik dövriyyəsi əsas götürülməklə təsnişləşdirmə aparılmışdır. 21 dekabr 2018-ci il sonuncu qərara əsasən sahibkarlıq subyektlərinin ölçü vahidinə görə təsnifatına Cədvəl 1-dəki kimi mikro müəssisələr də əlavə edilmişdir.

Əsas müəllif/Corresponding author: Elvin Nağıyev, Azərbaycan Dövlət Aqrar Universitetinin qiyabi doktorantı
e-mail: elvinnagiyev220885@gmail.com

ISSN 2310-4104 E-ISSN 2790-5799
https://doi.org/10.30546/2790-5799.4.2024.050

**Cədvəl 1.**

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları | İşçilərinin orta siyahı sayı (nəfər) | İllik gəliri (ig) (min manat) |
|---|---|---|
| Mikro sahibkar | 1 - 10 | ig ≤ 200 |
| Kiçik sahibkar | 11 - 50 | 200 < ig ≤ 3 000 |
| Orta sahibkar | 51 - 250 | 3 000 < ig ≤ 30 000 |
| İri sahibkar | 251 və ondan yuxarı | 30 000 < ig |

Mənbə: Azərbaycan Respublikası Nazirlər Kabineti, 21 dekabr 2018, 556 nömrəli qərarından çıxarış.

Dünya praktikasında isə KOS-ların təsnifat meyarları ölkələrin iqtisadi strukturu, yerli qanunvericilik, və maliyyə ehtiyaclarına görə fərqlənir. Eyni zamanda, kiçik və orta sahibkarlığın inkişaf etdiyi əksər ölkələrdə təsnifat meyyarları əsasən işçilərin sayı və gəlir həddinə əsaslanır. Məsələn, Avropa Ittifaqında (Aİ) həm işçi sayı, həm də gəlir və balans hesabatı meyarları tətbiq edilir (Schreyer, 1996). Avropa İttifaqı bu təsnifatı müxtəlif dəstək proqramlarının tətbiqi üçün istifadə edir. ABŞ-da KOS-ların təsnifatı sahələr üzrə həm işçi sayı həm də, gəlir limitlərinə görə bir-birindən fərqlənirlər. Bu sektora nəzarət və dəstəyi həyata keçirən ABŞ Kiçik Biznes İdarəsi (SBA) bu təsnifatı nəzərə almaqla hər bir sektor üzrə limitləri müəyyənləşdirir. Yaponiyada sənaye, pərakəndə satış və xidmət sektorlara təsnifləşdirmə üçün fərqli meyarlar tətbiq edilir. Əsasən, daha çox işçi sayı olan kiçik biznesləri dəstəkləmək üçün xüsusi təsnifatlardan istifadə edir. Çində isə iqtisadıyyatın müxtəlif sektorları üzrə fərqli limitlər tərtib edilir. Həm işçi sayı həm də, gəlir limitləri sənaye və xidmət sektorları üzrə fərqli olduğundan bu sahələrin xüsusiyyətlərinə uyğun dəstək göstərilməsini asanlaşdırır. ÜDM-də KOS-ların çəkisi yüksək olan bəzi ölkələrin təsnifat meyyarlarını aşağıdakı kimidir:

**Cədvəl 2. KOS-ların effektiv fəaliyyətinə görə fərqlənən qabaqcıl ölkələrin təsnifat meyyarları.**

| **Ölkə** | **Kateqoriya** | **İşçi Sayı** | **İllik Gəlir (yerli valyutada)** |
|---|---|---|---|
| **Avropa İttifaqı** | Mikro Sahibkar | 1-9 | ≤ 2 milyon avro |
| | Kiçik Sahibkar | 10-49 | ≤ 10 milyon avro |
| | Orta Sahibkar | 50-249 | ≤ 50 milyon avro |
| **ABŞ** | Kiçik Sahibkar | Sahəyə görə 500-ə qədər | Sahəyə görə fərqlidir |
| **Yaponiya** | Mikro sahibkar | İstehsalat və tikintidə 20 nəfərədək, xidmətlərdə 5 nəfərədək | Sahəyə görə dəyişir |
| | Kiçik Sahibkar | 50 nəfərədək (xidmət sektorunda 5 nəfərdən başlayır) | Sahəyə görə dəyişir |
| **Çin** | Mikro Sahibkar | 10 nəfərədək | Sektora görə dəyişir |
| | Kiçik Sahibkar | Sektora görə 100-200 nəfər | Sektora görə fərqlidir |
| | Orta Sahibkar | Sektora görə 300-1000 nəfərə qədər | Sektora görə fərqlidir |

Mənbə: Müvafiq ölkələrin bu sahədə mövcud olan təsnifat qaydalarına istinad olunaraq hazırlanıb.

ISSN 2310-4104 E-ISSN 2790-5799
https://doi.org/10.30546/2790-5799.4.2024.050

Azərbacanda hazırda qüvvədə olan KOS-ların təsnifatı ilə Avropa və ABŞ-dakı təsnifat arasında müəyyən oxşarlıqlar olsa da, illik gəlir və işçi sayı limitləri xeyli fərqlidir. Avropa və ABŞ daha yüksək gəlir limitləri və ixtisaslı işçi sayına malikdirlər, bu da onların geniş iqtisadi bazar və daha böyük maliyyə dövriyyəsinə malik olması ilə əlaqədardır. Çin və Yaponiya kimi ölkələr isə sektor və iqtisadi vəziyyətə görə daha çevik təsnifat meyarları tətbiq etməklə fərq yaratmağı bacarırlar. Ölkəmizdə isə KOS-un inkişafı üçün milli iqtisadi xüsusiyyətlər nəzərə alınaraq daha spesifik limitlər təyin edilir ki, bu da kiçik və orta sahibkarların yerli bazarda daha dayanıqlı fəaliyyət göstərmələrinə hədəflənmişdir.

Aydındır ki, KOS-ların iqitsadi inkişafda əhəmiyyətini nəzərə alaraq bu sahədə bir sıra mühüm işlər görülmüş, qanunun layihələri qəbul olunmuşdur və bu sahədə ciddi irəlləyişə nail olunmuşdur. Lakin dünyanın bu sahədə uğur əldə etmiş ölkələri ilə müqayisədə, Azərbaycanda KOS-ların sayının çoxluğuna baxmayaraq onların Ümummilli Gəlirdə payı çox aşağıdır. İstər təsərrüfat sahələri üzrə, istərsə də, regionlar üzrə bölgüsü, yerləşməsi təzadlıdır. Bir çox hallarda bu müəssisələrin böyüməsi üçün tələb olunan maliyyə resurslarına çıxış imkanları məhdud olur. Bəzən isə,maliyyə savadlılığının aşağı olması, səriştəli kadrların məhdudluğu, idarəetmənin düzgün qurulmaması, müəssisə dəyərlərinin düzgün ötürülməməsi, aydın və müasir çağırışlara uyğunlaşan strategiyanın olmaması və sair bu kimi faktorlar sahibkarlıq subyektlərinin stabil inkişafına, böyüməsinə mane olur. 2023-cü ilin yekunlarına görə ölkədə ümumilikdə 250,000-dən çox sahibkarlıq subyekti fəaliyyət göstərir ki, bunun təxminən 96%-i kiçik və orta sahibkarlıq subyektləridir. Onların ÜDM-də payı təxminən 30% təşkil edir. Sahə üzrə nəzər yetirdikdə isə, kənd təsərrüfatı və ticarət sahələrində KOS-lar daha dominantdır. Bölgələr üzrə baxdıqda isə Bakı və Abşeron yarımadası üzrə KOS-ların çəkisi 70%-dən çoxdur (Qazax-Gəncə-12%, Lənkəran-7%, Quba-Xaçmaz-5%, Digər-6%), qeyri-proporsianal bölgü formalaşıb. Müqayisə üçün qabaqcıl KOS təcrübələri olan ölkələrdə onların ÜDM-də payı daha yüksəkdir. Aşağıda bir neçə ölkənin təcrübəsi ümumiləşdirilmişdir:

**Cədvəl 3. Bir sıra qabaqcıl dünya ölkələrin sahibkarlıq subyektlərinin ümumi çəkisində KOS-ları həm say, həm də ÜDM-da payı və önə çıxan sahələr üzrə göstəriciləri.**

| Ölkə | KOS-ların sahibkarlıq subyektlərinə nisbəti | ÜDM-də payı (%) | Xüsusiyyətlər |
|---|---|---|---|
| **Avropa İttifaqı** | Təxminən 99% | Təxminən 50%-60% | KOS-lar əsasən xidmət və sənaye sahələrində fəaliyyət göstərir; dəstək proqramları və maliyyə resursları genişdir. |
| **ABŞ** | Təxminən 99% | 43%-45% | Texnoloji yeniliklərdə və startapların inkişafında KOS-ların rolu böyükdür. |
| **Yaponiya** | Təxminən 99.7% | 54.5% | KOS-lar daha çox istehsalat və texnologiya sektorlarında cəmləşib; hökumət tərəfindən aşağı faizli kreditlər verilir. |
| **Çin** | Təxminən 97% | 60%-65% | KOS-lar daha çox kənd təsərrüfatı və yüngül sənaye sahələrində fəaliyyət göstərir; məşğulluq imkanlarını artırır. |
| **Cənubi Koreya** | Təxminən 99% | 50%-55% | İxrac yönümlü sənayedə KOS-ların rolu böyükdür; dövlət tərəfindən rəqəmsallaşma və texnoloji dəstək verilir. |

Mənbə: Müvafiq ölkələrin bu sahədə mövcud olan təsnifat qaydalarına istinad olunaraq hazırlanıb.

Müqayisəli təhlillər göstərir ki, inkişaf etmiş ölkələrdə KOS-ların ÜDM-dəki payı və iqtisadi dəyəri Azərbaycanla müqayisədə daha yüksəkdir. Bu göstəriciləri yaxşılaşdırmaq üçün KOS-ların innovasiya potensialının artırılması, rəqəmsallaşmanın tətbiqi və sektor üzrə diversifikasiyanın genişləndirilməsi vacibdir. Xüsusilə kənd təsərrüfatı, ticarət, xidmət və sənaye sahələrində bu müəssisələrin rolu daha da artırılmalıdır. KOS-ların təsnifləşdirmə meyarlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılması və regionlararası qeyri-proporsional bölgünün aradan qaldırılması onların daha dayanıqlı və səmərəli fəaliyyət göstərməsinə şərait yarada bilər.

Gələcəkdə, KOS-ların iqtisadiyyatımızda rolunun artırılması üçün müasir yanaşmalar, davamlı dəstək mexanizmləri və strateji planlaşdırma həyata keçirilməlidir. Bu tədbirlər Azərbaycanın iqtisadi inkişafını sürətləndirməklə yanaşı, milli sahibkarlıq mühitini daha da gücləndirəcək.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikası Nazirlər Kabineti. İri, orta və kiçik sahibkar meyarları haqqında qərar, 21 dekabr 2018.
2. Azərbaycan Respublikası Nazirlər Kabineti. (20 aprel 2004). 57 saylı qərar: Təsnifat meyarları və sahibkarlıq subyektləri.
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Kiçik və Orta Sahibkarlıq üzrə Statistika: 2023-cü il yekunları.
4. Avropa Komissiyası. Aİ-də KOS təsnifat qaydaları. 2003.
5. ABŞ Kiçik Biznes İdarəsi (SBA). Kiçik və Orta Biznes Təsnifat Qayda və Standartları.
6. Yaponiya Kiçik və Orta Biznes Agentliyi. KOS Təsnifatına dair rəsmi sənədlər.
7. Çin Xalq Respublikası. KOS Təsnifatına dair qaydalar, 2011.
   World Bank, SME Finance Forum Reports.
8. European Commission, Annual Report on European SMEs.
9. Asian Development Bank, The Role of SMEs in Asia-Pacific Economic Growth.
10. Schreyer, P. (1996). SMEs and employment creation: Overview of selected quantitative studies in OECD member countries. https://www.oecd-ilibrary.org/science-and-technology/smes-and-employment-creation_374052760815

## КРИТЕРИИ КЛАССИФИКАЦИИ МАЛЫХ И СРЕДНИХ ПРЕДПРИЯТИЙ В АЗЕРБАЙДЖАНЕ И В МИРЕ

**РЕЗЮМЕ**

Малых и средних предприятий (МСП) считаются одной из основных движущих сил экономического роста, инноваций и занятости. Однако их развитию препятствуют такие факторы, как ограниченный доступ к финансовым ресурсам, нехватка квалифицированных кадров, институциональные проблемы и региональный дисбаланс. В разных странах классификация МСП определяется экономической структурой и местным законодательством, что непосредственно влияет на их рост и механизмы государственной поддержки. Для эффективного развития МСП в соответствии с международной практикой важно укрепление инновационного потенциала, расширение цифровизации и обеспечение регионального равновесия. Благодаря стратегическому планированию и адекватной государственной поддержке МСП могут сыграть более значительную роль в национальной экономике. Их устойчивое развитие во многом зависит от правильной классификации и идентификации. В данной статье рассматривается опыт передовых стран, представлены статистические данные, а также проведено сравнение доли МСП в валовом внутреннем продукте (ВВП) Азербайджана и других экономик. Кроме того, анализируются ключевые факторы, ограничивающие развитие данного сектора в стране.

**Ключевые слова:** Малых и средних предприятий, Экономический Рост, Критерии Классификации, Инновации, Региональное Развитие

ADAU-nun ELMİ ƏSƏRLƏRİ

ISSN 2310-4104 E-ISSN 2790-5799

https://doi.org/10.30546/2790-5799.4.2024.050

# CLASSIFICATION CRITERIA FOR SMALL AND MEDIUM ENTERPRISES IN AZERBAIJAN AND IN THE WORLD

## SUMMARY

Small and medium-sized enterprises (SMEs) are considered one of the main driving forces of economic growth, innovation, and employment. However, barriers such as limited access to financial resources, a shortage of skilled personnel, institutional challenges, and regional disparities hinder their development. In different countries, the classification of SMEs is determined based on economic structures and local legislation, directly affecting their growth and government support mechanisms. Strengthening innovation potential, expanding digitalization, and ensuring regional balance are crucial for the effective development of SMEs in line with international best practices. Through strategic planning and adequate state support, SMEs can play a more significant role in the national economy. Proper classification and identification of SMEs are essential for their sustainable development. This study examines the experience of leading countries in this field, provides statistical data, and compares the share of SMEs in the gross domestic product (GDP) of Azerbaijan and other economies. Additionally, key factors limiting the development of this sector in Azerbaijan are analyzed.

**Keywords**: Small and Medium-Sized Enterprises, Economic Growth, Classification Criteria, Innovation, Regional Development

*Məqalə daxil olmuşdur: 14.12.2024*
*Təkrar işləməyə göndərilmişdir: 18.12.2024*
*Çapa qəbul edilmişdir: 27.12.2024*

*Дата поступления статьи в редакцию: 14.12.2024*
*Отправлено на повторную обработку: 18.12.2024*
*Принято к печати: 27.12.2024*

*The date of the admission of the article to the editorial office: 14.12.2024*
*Send for reprocessing: 18.12.2024*
*Accepted for publication: 27.12.2024*